**MÖVZU 7**

# Beynəlxalq və transmilli şirkətlər, onların beynəlxalq iqtisadi münasibətlərdə rolu

## 7.1. Beynəlxalq şirkətlərin meydana gəlməsinin nəzəri əsasları, onların mahiyyəti və formaları

Beynəlxalq şirkətlərin yaranması dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin inkişafının qanunauyğun nəticəsi olmaqla yanaşı, onların inkişafının güclü amili kimi də çıxış edir.

XX əsrin sonlarında beynəlxalq şirkətlər dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin inkişafının vacib elementlərindən birinə çevrilmişdilər. son onilliklərdə onların sürətli inkişafı istehsalın və kapitalın beynəlmiləlləşməsi proseslərini, dünya təsərrüfatı əlaqələrinin qloballaşmasını əks etdirir. Beynəlxalq şirkətlər dünya iqtisadiyyatının "lokomotivləri" rolunu oynamağa başlayırlar.

Beynəlxalq şirkətlər bir tərəfdən sürətlə inkişaf edən beynəlxalq iqtisadi münasibətlərin məhsulu olsa da, digər tərəfdən ona güclü təsir mexanizmi kimi də çıxış edir. Beynəlxalq iqtisadi münasibətlərə aktiv surətdə təsir göstərməklə beynəlxalq şirkətlər yeni münasibətlər formalaşdırır, artıq formalaşmış münasibətlərin mahiyyətini isə dəyişirlər.

Dünya inkişafının təcrübəsi göstərir ki, istehsalın beynəlmiləlləşməsi prosesi beynəlxalq şirkətlərin yaranmasına təkan verən əsas amil olmuşdur. Bu prosesin əsasında ardıcıl beynəlmiləlləşmə modeli durur ki, onu da Sxem 9.1-də görmək olar.

**Sxem 9.1**

**İstehsalın ardıcıl beynəlmiləlləşməsi modeli**



100%
Təyinat ölkəsində kapital qoyuluşları və
idarəetmənin nəticələri

Xaricdə satışın genişləndirilməsinə və istehsalın təşkilinə yönəlmiş bu model beynəlmiləlləşmənin tarixən və məntiqi olaraq birinci forması - əmtəə ixracının beynəlxalq sahibkarlıq fəaliyyətinin yeni formaları – lisenziyaların, ticarət markasının ixracı, birbaşa xarici investisiyalar ilə ardıcıl tamamlanmasını əks etdirir.

Ümumilikdə beynəlxalq şirkətlər bir sıra amillər kompleksinin təsiri altında yaranır ki, onların da sırasına aşağıdakıları aid etmək olar:

- məhsuldar qüvvələrin inkişafı əsasında istehsalın və kapitalın beynəlmiləlləşməsi;
- kapitalın xaricə ekspansiyası, xaricdə müəssisə və filialların yaradılması;
- yüksək gəlirin əldə edilməsinə yönəlmiş səylər;
- beynəlxalq və milli masştabda istehsalın və kapitalın təmərküzləşməsinə aparan kəskin rəqabət;
- geoiqtisadi sərhədlərin əhəmiyyətinin azalması.

Beynəlxalq şirkətlərin yaranması birbaşa xarici investisiyalar ilə birbaşa əlaqədardır. Dünya təcrübəsində ***beynəlxalq şirkət***ə müxtəlif dünya ölkələrinə birbaşa investisiyaları həyata keçirən iri şirkətin struktur təşkili forması kimi baxılır. Beynəlxalq şirkətin birbaşa xarici investisiyasının nəticəsi müxtəlif ola bilər. Bu zaman birbaşa qeyri-rezident sərmayəçinin 50%-də az paya malik olduğu ***xarici müəssisə***, onun payının 50%-i keçdiyi ***qız firması*** və ya tam olaraq ona məxsus olan ***xarici filial*** yarana bilər.

Beynəlxalq şirkətləri kapitalın mənşəyinə görə şərti olaraq üç qrupa bölmək olar.

***Transmilli şirkətlər*** baş şirkəti bir ölkənin kapitalına məxsus olan, filialları isə bütün dünya üzrə səpələnən şirkətlərə deyilir. Onlar kapitalına görə milli, fəaliyyətlərinə görə isə beynəlməliləldirlər.

***Çoxmilli şirkətlər*** dedikdə baş şirkəti iki və ya daha çox ölkənin kapitalına məxsus olan, filialları isə müxtəlif ölkələrdə yerləşən şirkətlər başa düşülür. Bu şirkətlər həm kapitallarına, həm də fəaliyyət sferalarına görə beynəlmiləldirlər.

Ümüncü qrupa isə ***beynəlxalq kartellər***i aid edirlər. bu zaman firmalar vahid ticarət siyasəti həyata keçirmək üçün birləşirlər. Onlar satış bazarının bölüşdürülməsi və öz məhsullarına minimal qiymətlərin müəyyənləşdirilməsi üzrə razılığa gəlirlər.

Transmilli (TMŞ) və çoxmilli (ÇMŞ) şirkətlərə beynəlxalq şirkətlərin mövcudluğu forması kimi baxılır. Beynəlxalq şirkətlərin iki yerə bölünməsi isə kifayət qədər şərtidir, çünki onların əsas keyfiyyət əlaməti kimi baş şirkəti neçə ölkənin kapitalının yaratdığı deyil, şirkətlərin fəaliyyətinin beynəlmiləl xarakteri çıxış edir. Çox zaman isə TMŞ və ÇMŞ-lər sinonimlər kimi istifadə olunurlar. Lakin, TMŞ anlayışı daha çox yayılmışdır.

Yuxarıda deyilənlərin kontekstində birbaşa xarici investisiya əsasında yaradılmış bir xarici filiala sahib olan şirkətləri belə beynəlxalq hesab etmək olar.

Bununla belə, beynəlxalq şirkətlərin müəyyən edilməsinin bir neçə variantı mövcuddur. TMŞ üzrə BMT komissiyası beynəlxalq şirkətlər kateqoriyasına aşağıdakı əlamətlərə malik şirkətləri aid edir:

- hüquqi forması və fəaliyyət sferasından asılı olmayaraq iki və ya daha artıq ölkədə təsərrüfat vahidlərinə malik olanlar;
- bir rəhbər mərkəz vasitəsilə razılaşdırılmış siyasət və ümumi strategiya həyata keçirməyə imkan verən sistem çərçivəsində fəaliyyət göstərənlər;
- şirkətin ayrı-ayrı vahidləri mülkiyyət vasitəsilə və ya digər şəkildə elə cür əlaqədə olmalıdır ki, bu vahidlərdən biri və ya daha artığı digərlərinin fəaliyyətinə əhəmiyyətli təsir göstərir, onlarla biliklərini, təcrübəsini və məsuliyyətini bölüşdürür.

YUNKTAD-ın sənədlərində transmilli şirkət özünə ana şirkəti və onun filiallarını aid edən səhmdar və ya özəl şirkət kimi göstərilir. Bu zaman ana şirkət yerləşdiyi ölkədən kənarda aktivləri və ya digər vahidləri idarə edən müəssisədir.

TMŞ-lərin əsas əlaməti kimi onların fəaliyyətinin beynəlxalq xarakter kəsb etməsini göstərmək lazımdır. TMŞ-lər aşağıdakı əsas cəhətlərlə xarakterizə olunurlar:

- TMŞ-lər dünya təsərrüfatının inkişafının, beynəlxalq əmək bölgüsü prosesinin aktiv iştirakçısıdır;
- bu şirkətlər üçün kapitalın hərəkətinin milli sərhədlərdə mövcud olan maneələrdən nisbi müstəqilliyi xarakterikdir;
- TMŞ-lər bir çox dünya ölkələrində öz əməliyyatlarını həyata keçirməklə dünya təsərrüfat əlaqələrinin tənzimlənmsində iştirak edirlər.

Dünya praktikasında isə beynəlxalq şirkət dedikdə doğrudan da dünya əmtəə və istehsal amilləri bazarlarına əhəmiyyətli təsir göstərə bilən iri şirkətlər başa düşülür. Bir qayda olaraq onların sırasına aşağıdakılara malik şirkətlər aid edilir:

- satışın illik həcmi 1 milyard ABŞ dollarından az olmamalıdır;
- ümumi dövriyyənin 1/5-dən 1/3-nə qədəri xarici əməliyyatların payına düşür;
- xarici aktivlərin payı 25%-dən az deyildir;
- ən azı altı ölkədə filialları mövcuddur.

Beləliklə, beynəlxalq şirkətlərin əsas keyfiyyət əlaməti kimi birbaşa xarici investisiyalar prosesi çıxış edir. Bununla əlaqədar, beynəlxalq şirkətlərin yaranması prosesini xaricdə birbaşa investisiyaların yerləşdirilməsinin motivləri (satış bazarlarının genişləndirilməsi, ucuz resurslara çıxışın əldə edilməsi, mülkiyyətin alınması) ilə izah etmək olar.

Bununla yanaşı, bu zaman beynəlxalq sahibkarlıq fəaliyyətinin daha konkret motiv və məqsədlərini də nəzərə almaq lazımdır.

***Transmilli xərclər nəzəriyyəsi***nə görə, istehsalın beynəlmiləlləşməsinin ən vacib stimulu kimi ana və xarici firmaların resurs potensialının (əsas fondlar, kadrlar, nou-haular) konkret xüsusiyyətləri çıxış edir.

1980-ci illərdən etibarən xarici istehsalın inkişafının izahı üçün əsasən perspektivdə ***firmanın rəqabət üstünlüklərinin təmin edilməsi*** motivindən çıxış edirlər. Bu zaman rəqabət qabiliyyətlilik potensialına istehsal edilən əmtəə və xidmətlərin keyfiyyət xüsusiyyətlərinin yüksəldilməsi üzrə, innovasiya, istehsal və satış potensialının inkişafı üzrə ilkin siqnal rolunu oynayan amillər kompleksi kimi baxılır.Şirkətin fəaliyyətinin səmərəliliyi birbaşa olaraq daxili və xarici korporativ əlaqələrin optimallaşdırılması, partnyorlarla qarşlıqlı fəaliyyətin daha səmərəli zəncirinin seçimi ilə əlaqələndirilir.

Baş firma və onun xarici filialları arasında qarşılıqlı faydalı uzunmüddətli işgüzar əlaqələrin məcmu müsbət potensialı aşağıdakılardan irəli gəlir:

- nəqliyyat xərclərinin qənaətinə imkan verən qarşılıqlı çatdırma sisteminin inkişafı;
- şaquli əlaqələr əsasında ümumi satış şəbəkəsinin təşkil edilməsi;
- ümumi inkişaf strategiyası və idarəetmə sistemi çərçivəsində maliyyə, kadr, informasiya resursları ilə mübadilə;
- şirkətin gəlirlərinin məqsədəmüvafiq differensasiyası məqsədilə şirkətdaxili qiymətlərin və əmək münasibətlərinin harmonlaşdırılması;

***Maliyyə idarəetməsi nəzəriyyəsi***nə görə xarici istehsalın mövcudluğu aşağıdakılara gətirir:

- idarəetmə funksiyalarının bir-birini təkrarlamasının aradan qaldırılması, bu funksiyaların mərkəzləşdirilməsi və məhsulu satışına sərf edilən xərclərin azaldılmasına hesabına qənaət;
- masştab effekti hesabına qənaət;
- şirkətdaxili bölmələrin sərbəst pul vəsaitlərindən müəyyən müddət istifadə imkanlarının artması;
- korporativ risqlərin azaldılması və uzunmüddətli rəqabət üstünlüklərinin əldə edilməsi məqsədilə istehsalın diversifikasiyası.

Beynəlxalq şirkətlərin xarici sahibkarlıq fəaliyyətlərinin yuxarıda sadalanan nəzəri əsaslandırmalarının demək olar ki, hamısında transfert qiymətlərindən istifadə edilməsi ilə transmilli xərclərin azaldılması xüsusi yer tutur.

***Transfert qiymətləri*** beynəlxalq şirkətlərin daxili ticarətdə istifadə etdikləri və öz-özünə deyil (tələb və təklifin təsiri altında), şirkətin strateji məqsədlərindən çıxış edilərək müəyyən edilən daxili şərti hesablaşma qiymətləridir. Bununla əlaqədar, bu qiymətlər tətbiq məqsədlərindən və rəqabət şəraitindən asılı olaraq dünya qiymətlərindən bu və ya digər istiqamətə fərqlənə bilərlər.

Transfert qiymətlərinin beynəlxalq şirkətlərin firmadaxili ticarətində tətbiqinin əsas məqsədləri kimi aşağıdakıları göstərmək olar:

- bazarda inhisar mövqeyinin qorunması;
- yeni satış bazarlarının əldə edilməsi;
- vergi və gömrük rüsumlarının minimumlaşdırılması;
- valyuta nəzarətindən yan keçmə, valyuta möhtəkirliyi, zəif valyutadan güclü valyutaya konvertasiya;
- inflyasiya templərində olan fərqdən istifadə;

- mənfəətin köçürülməsi yolu ilə xarici filialın maliyyə vəziyyətinə təsir etmə;
- qız firma tərəfindən mənfəətin real səviyyəsinin gizlədilməsi və s.

TMŞ-lərin fəaliyyətinin genişlənməsi həm üfiqi, həm də şaquli istiqamətdə baş verir. ***Üfiqi istiqamətdə*** fəaliyyət göstərən xarici filiallar ana şirkətin istehsal etdiyi məhsul çeşidinə tam və ya qismən uyğun məhsullar istehsal edirlər. bu cür hərəkət etməklə TMŞ-lər ekspansiyanı həyata keçirir, yəni gömrük və qeyri-gömrük maneələrini aşmaqla xarici bazara daxildən girirlər. müxtəlif ölkələrdə filiallara malik olmaqla TMŞ-lər milli bazarların spesifik şərtlərinə asanlıqla uyğunlaşırlar. Ekspansiyanın üfiqi forması yüngül və yeyinti sənayesində daha geniş yayılmışdır.

TMŞ-lərin ***şaquli ekspansiyası*** ana şirkət və ya onun məhsullarının alıcıları üçün xammal təchizatçısı rolunu oynayan filialların yaradılmasını nəzərdə tutur. Məsələn, neft sənayesində filiallar neft hasil edərək onu ana şirkətə göndərir, o isə öz növbəsində həmin nefri emal edərək hazır neft məhsullarını öz filiallarına göndərir.

Öz filiallarını idarəetmə formasına görə TMŞ-ləri şərti olaraq üç tipə bölmək olar.

Birinci tip TMŞ-ləri idarəetmə xarakterinə görə ***ekomərkəzçi*** hesab etmək olar. Bu idarəetmə sistemi zamanı ana şirkət xarici filiallar üzərində sərt idarəetmə nəzarəti həyata keçirir və bu filiallara ana şirkətin yerləşdiyi ölkənin nümayəndələri rəhbərlik edirlər (yəni, əgər TMŞ-nin baş ofisi ABŞ-da yerləşirsə, onda onun filiallarına amerikanlar rəhbərlik edirlər).

İkinci tip TMŞ-lər ***polimərkəzçi*** idarəetmə formasını nəzərdə tutur. Bu zaman xarici filiallara əhəmiyyətli hüquqlar verilir və onlar yarıavtonom rejimdə fəaliyyət göstərirlər.

Son zamanlar xarici filialların idarəedilməsində filialların tam surətdə avtonom fəaliyyət göstərmələrinə üstünlük verilməyə başlanmışdır. Bu cür idarəetmə sistemi ***geomərkəzçi*** (TMŞ-lərin üçüncü tipi) adını almışdır. Bu idarəetmə üsulu yerli şəraitə daha yaxşı uyğunlaşmağa imkan verir.

XIX əsrin sonlarından etibarən yaranmağa başlamış beynəlxalq şirkətlər kifayət qədər uzun təkamül yolu keçmişlər. Bu inkişaf prosesi zamanı onların forma və fəaliyyət sferalarının prioritetləri, şirkətdaxili strukturları və strategiyaları dəyişmişdir.

Beynəlxalq şirkətlərin yaranmasının ***birinci mərhələsi*** (XIX əsrin sonu XX əsrin əvvəli) sənaye inhisarlarının transmilli fəaliyyəti ilə əlaqədardır. Bu inhisarlar müstəmləkələrin xammal bazalarını öz maraqlarına daxil edərək onların siyasi asılılıq

münasibətlərini iqtisadi asılılıqla tamamladılar. Onlar öz əlaqələri ilə bir çox ölkələri birləşdirdilər və son nəticədə dünya kapitalist təsərrüfatının yaranmasına gətirib çıxardılar.

***İkinci mərhələ*** (iki dünya müharibəsi arasındakı dövr) ikinci dünya müharibəsinə hazırlığın, hərbi məqsədlərə yönəlmiş dövlət xərclərinin artımının beynəlxalq şirkətlərin hərbi-sənaye TMŞ-lər formasında inkişafına gətirib çıxarması ilə xarakterizə olunur.

***Üçüncü mərhələ*** (1950-ci illər) zamanı həm baş şirkətin mənşə kapitalı üzrə, həm də fəaliyyət sferası üzrə inteqrə olunan beynəlxalq şirkətlər intensiv surətdə inkiaş etmişlər. 1960-cı illərə qədər istehsalın inteqrasiyası həm üfüqi, həm də şaquli istiqamətdə getmiş, xammal dünya bazarları ilə yanaşı, sənaye əmtəələrinin dünya bazarları yaranmışdır. Bazarın əldə edilməsi, sənayecə inkişaf etmiş ölkələrin yüksək həyat standartlarına malik istehlakçıları üçün kütləvi tələb əmtəələrinin istehsalı və çirkli və əməktutumlu istehsalların inkişaf etməkdə olan ölkələrə köçürülməsi beynəlxalq şirkətlərin inkişafının strateji məqsədlərinə çevrildi.

***Dördüncü mərhələdə*** (1960-1970-ci illər) beynəlxalq şirkətlər elmi-texniki inqilabın nailiyyətlərindən, istehsalın ölkələrarası kooperasiyasının üstünlüklərindən və öz ölkələrinin hökumətlərinin dəstəyindən istifadə edərək əsasın öz fəaliyyətlərinin xarici iqtisadi sferasına istiqamətləndilər. Bu sfera onların əsas gəlir mənbəsinə çevrildi. Bu dövrdə beynəlxalq şirkətlərin xarici filial və müəssisələri ana şirkətlə istehsal, satış, idarəetmə sferasında vahid standart və prinsiplər üzrə işləyərək qəbuledici ölkələrdə formalaşmış mənfi münasibətləri (bu münasibətlər onlardan bir çoxunun milliləşməsinə gətirib çıxarmışdı) aradan qaldırmağa və bu ölkələrin milli iqtisadiyyatlarının üzvi hissəsi olmağa səy göstərirdilər. Bir çox beynəlxalq şirkətlər bu məqsədlə çirkli istehsalın inkişaf etməkdə olan ölkələrə köçürülməsi strategiyasından imtina etdilər, milli kadrlardan istifadə edərək elmi-texniki inqilabın nailiyyətlərinin bu ölkələrə gətirilməsinə yardım etməyə başladılar. Onlar yerli firmalarla əməkdaşlıq əlaqələri quraraq sonradan onları öz tərkiblərinə daxil etməyə başladılar.

Bu mərhələdə beynəlxalq şirkətlər keyfiyyətcə vacib digər cəhətləri də əldə etməyə başladılar:

- dəqiq sahə orientasiyasından imtina edildi;
- sənaye kapitalı maliyyə və ticarət, elm kapitalı ilə daha sıx birləşməyə başladı;
- istehsalın unifikasiyası və standartlaşdırılması, elmi-texniki tədqiqat prosesləri aktivləşdi.

Beynəlxalq şirkətlər yuxarıda sadalananların bazasında beynəlxalq istehsal kompleksinə çevrildilər.

Müasir ***beşinci mərhələdə*** (1980-ci illərdən indiyə qədər) beynəlxalq şirkətlərin yeni forması – qlobal şirkətlər meydana gəlmişdir. Onların keyfiyyət fərqləri aşağıdakılardır:

1) Onlar ümumdünya qlobal strategiya çərçivəsində fəaliyyət göstərirlər. Bu strategiya dünya bazarının ayrı-ayrı seqmentlərinin əldə edilməsinə deyil, istehsal və məhsulun reallaşdırılmasında əsas dünya təsərrüfatı mövqelərinin əldə edilməsinə yönəlmişdir. Bu strategiyaya istehsal, elmi-texniki tədqiqatlar və onların nəticələrinin əyani tətbiqi, korporativ idarəetmə, əmtəə və xidmətlərin yeni növlərinin istehsalı, qlobal marketinq və satışdan sonrakı xidmət, istehlakçılarla (real və potensial) daimi əlaqə aiddir.
2) Onları istehsalın qlobal amillərindən (kapital, işçi qüvvəsi, təbii resurslar, sahibkarlıq bacarıqları) istifadə edirlər. Hesablamalar göstərir ki, dünyanın ən iri 350 şirkəti qlobal potensialın 40%-ni və texnoloji yeniliklərin 80%-ni öz əllərində cəmləşdirmişlər.
3) Onlar dünya ölkələrinin əksəriyyətində yerləşən qlobal beynəlxalq istehsal sistemini yaratmışlar.

Qərbin elm dairələrində dünya iqtisadiyyatının transmillləşməsinin bir sıra konsepsiyaları mövcuddur. Onların arasında üç ən populyarını ayırmaq olar.

***Böyük Britaniya professoru C.Danninqin "Firma artımı" nəzəriyyəsi.*** Redinq Universitetinin (Böyük Britaniya) professoru C.Danninqin nəzəriyyəsinin mahiyyəti firmanın müvəffəqiyyətli fəaliyyəti ilə xarici bazara çıxış arasında birbaşa əlaqənin mövcud olmasından ibarətdir. Bu nəzəriyyəyə görə, əgər bazar genişlənirsə, deməli firma da artmalı və inkişaf etməlidir. Əgər firmanın artımı dayanırsa o, sadəcə məhv olur. Lakin əmtəə bazarında daim mövcud olma proteksionizm səbəbindən çox çətindir. Buna görə də, firma xaricdə kapital qoyuluşu həyata keçirməli, özünün filiallarını açmalıdır.

***Amerika iqtisadçıları R.Vernon və S.Haylerin "Məhsulun həyat dövrü" nəzəriyyəsi.*** Bu iqtisadçılar TMŞ-ləri formalaşmasının zəruriliyi konsepsiyasını irəli sürmüşlər. Bu konsepsiya yeni məhsulun mənimsənilməsi səviyyəsindən asılı olaraq istehsalın ana şirkətdən xaricdə yerləşən qız filiallarına keçidini əks etdirir. Istehsalın bütün dövrü üç mərhələyə bölünür:

- Ekstremal mərhələ. Bu mərhələdə yeni məhsul mənimsənilir. Məhsul tələbin elastiklik səviyyəsi aşağıdır və buna görə də istehsala adətən daha çox inkişaf etmiş ölkələrdə (ABŞ, Yaponiya, Almaniya və s.) başlanılır;
- Yetkinlik mərhələsi. Yeni məhsulun istehsalının inkişaf etməsi ilə, onun standartlaşması və istehsal dəyərinin aşağı düşməsi ilə, bu əmtəə istehsalı digər inkişaf etmiş ölkələrdə də təşkil olunur;
- İstehsalın əyalətləşməsi. Digər ölkələr də əmtəə istehsalı texnologiyasını mənimsədikcə, əmtəə daha aşağı xərclərin mövcud olduğu inkişaf etməkdə olan ölkələrdə də istehsal olunmağa başlayır.

***Kanada iqtisadçısı A.Raqmenin "Beynəlmiləlləşmə nəzəriyyəsi".*** Bu iqtisadçı hesab edir ki, xarici bazar amillərinin təsirini aradan qaldırmaq üçün TMŞ-lər digər ölkələrdə filiallar açmaqla "özlərinin" xarici bazarlarını yaradırlar. Bu halda ana şirkət və onun filialları arasında ticarət dünya qiymətləri ilə deyil, müqavilə sazişləri əsasında həyata keçirilir ki, bu da istehsalın səmərəliliyinə müsbət təsir göstərir.

Beynəlxalq şirkətlərin inkişafının müasir mərhələsi təkcə qlobal şirkətlərin peyda olması ilə deyil, həmçinin fəaliyyətin təşkilində meydana gələn keyfiyyət dəyişiklikləri ilə də xarakterizə olunur:

1. Elmi-texniki inqilab və kəskin rəqabət şəraitində onların fəaliyyətinin əsas məqsədi maksimal mənfəət əldə etmək deyil. Bu göstərici prioritetinə görə hazırda 5-6-cı yerdə durur. Əsas məqsəd maliyyə davamlılığının və "bazarın maksimumlaşdırılması"nın təmin edilməsidir.
2. Şirkətin vahid qlobal strategiyası çərçivəsində istehsal və satışın qlobal şəbəkəsinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu zaman beynəlxalq şirkətlər istehsalın tam tsiklini bir ölkədə yaratmaqla qane olmayaraq qlobal şəbəkənin hər bir müəssisəsini ayrı-ayrı detal və komponentlərin daha rasional istehsalında ixtisaslaşdırmağa səy göstərirlər. Bu zaman son yığım prosesi daha sərfəli yerdə yerləşən müəssisələrdə həyata keçirilir.
3. Beynəlxalq şirkətlər çərçivəsində beynəlxalq əmək bölgüsünün masştabının genişlənməsi şirkətin dünyanən müxtəlif hissələri üzrə səpələnmiş bölmələrinin istehsal, tədqiqat, satış və s. fəaliyyətlərinin üfüqi və şaquli inteqrasiyasına əsaslanır.
4. Beynəlxalq şirkətlər tərəfindən yaradılan maddi və qeyri-maddi beynəlxalq istehsal da yeni keyfiyyətlər əldə etmişdir. Son onillikdə beynəlxalq şirkətlərin xidmət

sferasına, o cümlədən informasiya, reklam, konsaltinq xidmətlərinə, elmin inkişafına birbaşa xarici investisiyaları intensiv surətdə artır.

5. Beynəlxalq şirkətlərin hasilat sənayesinin inkişafında həyata keçirdikləri strategiya maddi, maliyyə və insan resurslarının keyfiyyətcə yeni (qlobal) kombinasiyasına əsaslanır və əməyin məhsuldarlığının yüksəldilməsinə və istehsalın səmərəliliyinin artırılmasına yönəldilmişdir. Bəzi qiymətləndirmələrə görə, 2025-ci ildə hasilat sənayesinin payı dünya ÜDM-nin 10%-ni keçməyəcək, lakin, istehsalın səmərəliliyinin artımı hesabına dünya ehtiyacları tam olaraq ödəniləcək.
6. Beynəlxalq şirkətlərin bölmələri arasında şirkətdaxili ticarət intensiv surətdə inkişaf edir. O, hazırda bütün dünya ticarətinin 1/3-ni təşkil edir.
7. Beynəlxalq şirkətlər tərəfindən kapital ixracı təkcə xarici filialların sayının artırılmasına deyil, həm də müxtəlif ölkələrdə istehsalın təşkil və texnologiyasında olan fərqlərin aradan qaldırılmasına yönəlmişdir. Şirkətin məhsul və xidmətlərinin keyfiyyəti istehsal yerindən asılı olmayaraq dünya standartlarına uyğun olmalıdır.
8. Beynəlxalq şirkətlər texnologiyaların işlənməsi, ötürülməsi və istifadə edilməsini adətən qapalı korporativ struktur çərçivəsində həyata keçirirlər. Eyni zamanda, rəqabət mübarizəsində meydana gələn risqlərin azaldılması üçün birgə elmi-tədqiqat mərkəzləri və proqramları yaradılır, digər şirkətlərlə (həm partnyor, həm də rəqib) kəsişmə lisenziyalaşdırılması həyata keçirilir.
9. Beynəlxalq şirkətlər fəaliyyət formalarının diversifikasiyasını həyata keçirirlər. Xarici iqtisadi fəaliyyətin hibrid və ya kompleks formaları ən səmərəli forma hesab edilirlər. Dünya praktikasında "lifreksdinq" – lisenziyalarla mübadilə, françayzinq, əmtəə ixracı və birbaşa xarici investisiyaların kompleks birləşməsi – getdikcə daha çox yayılır. Qeyri-maddi istehsal sferasında xarici iqtisadi fəaliyyətin müəəyn növündə (maliyyə, satış, idarəetmə, sığorta və s.) ixtisaslaşma meyli də gözə çarpır.
10. Müxtəlif milli və beynəlxalq mərkəzlərə məxsus beynəlxalq şirkətlərin birləşməsi və qovuşması və onların strateji sistem, ailə, alyans formalarında qarşılıqlı fəaliyyətlərinin güclənməsi baş vermişdir.
11. Dünyanın üçqütblü modelinə uyğunlaşmağa səy göstərən beynəlxalq şirkətlər ABŞ – Qərbi Avropa – Yaponiya triadasının hər bir mərkəzində ən azı bir iri koordinator-müəssisənin fəaliyyətini təşkil etməyə çalışırlar.

Beləliklə, müasir beynəlxalq şirkətlər öz fəaliyyət sferalarına görə beynəlmiləl olan iri sənaye-maliyyə birləşmələridir. Onlar dünya masştabında mərkəzləşdirilmiş planlaşdırma və idarəetmə prinsipi üzrə qurulmuşlar və dünya ticarəti, kapital qoyuluşları, texnologiyalarla mübadilə, istehsal və elmi-texniki əməkdaşlıq, işçi qüvvəsinin miqrasiyası proseslərində aktiv surətdə iştirak edirlər. Onlar beynəlxalq əmək bölgüsünün obyektiv meyllərindən aktiv surətdə istifadə etməklə dünyada gedən beynəlmiləlləşmə prosesini gücləndirir, ümumdünya əmək bölgüsündə yeni sxemlərin meydana gəlməsinə təkan verirlər.

## 7.2. Transmilli şirkətlərin qlobal filial şəbəkələri, ölkələr üzrə təmərküzləşməsi və beynəlxalq istehsal masştabları

Beynəlxalq istehsalın ümumi masştabı, onun seqmentlərinin coğrafi bölgüsü müəssisələrin sayı və onların dünyanın bu və ya digər regionunda yerləşməsi ilə müəyyən edilə bilər.Ən son rəqəmlərə görə dünyada təxminən 64 min TMŞ fəaliyyət göstərir ki, onlar da bütün dünya üzrə 870 min xarici filiala malikdirlər. Bu şirkətlərin müəyyən hissəsi doğrudan da iri, öz fəaliyyət sahələrində lider mövqelərə malik şirkətlərdir. Bununla belə, onların bir çoxu kiçik və orta müəssisələr kateoqiyasına aiddirlər. Məsələn, 1996-cı ildə İsveçə məxsus TMŞ-lərin 4/5-ü kiçik və orta müəssisələr idi. İtaliyada isə bu göstərici 3/5-ə bərabər idi. Müasir dünya iqtisadiyyatının qloballaşması şəraitində rəqabət mübarizəsinin səviyyəsinin artması daha çox şirkətləri öz investisiya portfellərinə xarici aktivləri daxil etməyə məcbur edir ki, bu da transmilli şirkətlərin və onların dünya üzrə filiallarının sayının artmasına gətirib çıxarır. Ümumilikdə transmilli şirkətlər və onların filiallarının sayı barədə ümumi təsəvvürü Cədvəl 9.1-dən əldə etmək olar.

Bu göstəricilər TMŞ və onların filiallarının ölkələr üzrə təmərküzləşməsi barədə müəyyən təsəvvür formalaşdırmağa imkan verir:

1. Onların əsas hissəsi (77%) inkişaf etmiş ölkələrdə - Qərbi Avropada, ABŞ-da və Yaponiyada cəmlənmişdir. Maraqldır ki, bu ölkələr arasında birinci yerdə Danimarka (9356) gedir. Almaniya üzrə bu göstərici 8522-yə, Böyük Britaniya üzrə 3132-yə, Fransa üzrə isə 1922-yə bərabərdir. Lakin filialların sayı bu vəziyyəti aydınlaşdırır: Böyük Britaniyada onların sayı 13828-ə, Almaniyada 13826-ya, Fransada 9473-ə bərabərdir. Bu o deməkdir ki, TMŞ-nin ana ofisinin bu və ya digər ölkədə

yerləşməsinə baxmayaraq, onların filialları əsasən daha əlverişli şəraitə malik digər ölkələrdə fəaliyyət göstərirlər. TMŞ-lərin yüksək təmərküzləşməsi həmçinin İsveçrə (4506 ana şirkət və 5774 filial), İsveç (müvafiq olaraq 4260 və 4656) və Norveçdə (900 və 5105) də müşahidə olunur. ABŞ iqtisadiyyatının masştabı fonunda burada rəsmi olaraq cəmisi 3235 TMŞ fəaliyyət göstərir və onların filiallarının sayı 15712-yə bərabərdir. Yaponiya üzrə bu göstəricilər müvafiq olaraq 3760 və 3359-ə bərabərdir.

2. TMŞ-lərin filial şəbəkəsinin Latın Amerikası ölkələrində təmərküzləşməsi dərəcəsi kifayət qədər yüksəkdir. Belə ki, 2022 TMŞ-yə 45383 filial düşür. Bu filiallardan daha çoxu Meksikada (25708), Braziliyada (8050), Çilidə (3173), Kolumbiyada (2220) fəaliyyət göstərir.

**Cədvəl 9.1.**

**Ana şirkətlərin və xarici filialların region və ölkələr üzrə sayı**

*(ən son tədqiqat ilinə olan göstəricilər)*

| Region, ölkə | İl | Ana şirkətlərin sayı | Xarici filialların sayı |
|---|---|---|---|
| **İnkişaf etmiş ölkələr** | | **49048** | **105830** |
| ***Qərbi Avropa*** | | ***39715*** | ***77415*** |
| *Avropa Birliyi* | | *34291* | *65460* |
| Avstriya | 2001 | 935 | 2607 |
| Bekçika/Lüksemburq | 1997 | 988 | 1504 |
| Danimarka | 1998 | 9356 | 2305 |
| Finlandiya | 2001 | 900 | 2030 |
| Fransa | 2000 | 1922 | 9473 |
| Almaniya | 2000 | 8522 | 13826 |
| Yunanıstan | 2001 | 155 | 697 |
| İrlandiya | 2001 | 39 | 1225 |
| İtaliya | 1999 | 1017 | 1843 |
| Niderland | 1998 | 1608 | 3132 |
| Portuqaliya | 2001 | 600 | 3000 |
| İspaniya | 1998 | 857 | 7465 |
| İsveç | 2002 | 4260 | 4656 |
| Böyük Britaniya | 2002 | 3132 | 13828 |
| *Digər Qərbi Avropa ölkələri* | | *5424* | *11955* |
| Hibraltar | 2002 | .. | 21 |
| İslandiya | 2000 | 18 | 55 |
| Malta | 2002 | .. | 1000 |
| Norveç | 1998 | 900 | 5105 |
| İsveçrə | 1995 | 4506 | 5774 |
| ***Şimali Amerika*** | | ***4674*** | ***19437*** |
| Kanada | 1999 | 1439 | 3725 |
| ABŞ | 2000 | 3235 | 15712 |
| ***Digər inkişaf etmiş ölkələr*** | | ***4659*** | ***6847*** |
| Avstraliya | 2001 | 682 | 2352 |
| İsrail | 2002 | .. | 30 |
| Yaponiya | 2002 | 3760 | 3359 |
| Yeni Zelandiya | 1998 | 217 | 1106 |
| **İnkişaf etməkdə olan ölkələr** | | **13936** | **517611** |

| | | | |
|---|---|---|---|
| ***Afrika*** | | ***1202*** | ***7049*** |
| Əlcəzair | 2002 | .. | 14 |
| Anqola | 2002 | 2 | 31 |
| Benin | 2002 | .. | 10 |
| Botsvana | 2002 | . | 10 |
| Burkina Faso | 2002 | 1 | 14 |
| Burundi | 2002 | .. | 3 |
| Kamerun | 2002 | .. | 60 |
| Mərkəzi Afrika Respublikası | 2002 | .. | 5 |
| Çad | 2002 | .. | 5 |
| Konqo | 2002 | .. | 25 |
| Kot d'İvuar | 2002 | .. | 120 |
| Konqo | 2002 | 4 | 6 |
| Cibuti | 2002 | 1 | 6 |
| Misir | 1999 | .. | 99 |
| Ekvatorial Qvineya | 2002 | .. | 3 |
| Efiopiya | 2002 | 4 | 14 |
| Qabon | 2002 | .. | 39 |
| Qambiya | 2002 | .. | 5 |
| Qana | 2002 | .. | 62 |
| Qvineya | 2002 | .. | 15 |
| Qvineya-Bissau | 2002 | .. | 2 |
| Keniya | 2002 | .. | 123 |
| Lesoto | 2002 | .. | 1 |
| Liberiya | 2002 | .. | 11 |
| Madaqaskar | 2002 | .. | 28 |
| Malavi | 2002 | .. | 6 |
| Mali | 2002 | 1 | 8 |
| Mavritaniya | 2002 | 2 | 2 |
| Mauritius | 2002 | .. | 35 |
| Mərakeş | 2002 | .. | 194 |
| Mozambik | 2002 | 5 | 27 |
| Namibiya | 2002 | .. | 7 |
| Niger | 2002 | 1 | 5 |
| Nigeriya | 2002 | 48 | 66 |
| Ruanda | 2002 | .. | 2 |
| Seneqal | 2002 | 6 | 42 |
| Seyşel adaları | 1998 | - | 30 |
| Syerra-Lyone | 2002 | 1 | 6 |
| Somali | 2002 | 1 | .. |
| Cənubi Afrika | 1998 | 941 | 2044 |
| Sudan | 2002 | 2 | 4 |
| Svazilend | 2002 | 12 | 61 |
| Toqo | 2002 | 3 | 9 |
| Tunis | 2002 | 142 | 2503 |
| Tanzaniya | 2002 | 15 | 38 |
| Uqanda | 2002 | .. | 34 |
| Zambiya | 1999 | 2 | 1179 |

| | | | |
|---|---|---|---|
| Zimbabve | 1998 | 8 | 36 |
| | | | |
| ***Latın Amerikası və Karib hövzəsi*** | | ***2022*** | ***45383*** |
| Antiqua və Barbuda | 2002 | .. | 10 |
| Argentina | 2002 | .. | 1123 |
| Aruba | 2002 | .. | 29 |
| Baham adaları | 2002 | .. | 117 |
| Barbados | 2002 | .. | 99 |
| Beliz | 2002 | .. | 7 |
| Bermuda | 2002 | .. | 240 |
| Boliviya | 1996 | .. | 257 |
| Braziliya | 1998 | 1225 | 8050 |
| Vircin adaları | 2002 | .. | 129 |
| Kayman adaları | 2002 | .. | 283 |
| Çili | 1998 | 478 | 3173 |
| Kolumbiya | 1995 | 302 | 2220 |
| Kosta-Rika | 2002 | .. | 154 |
| Dominika | 2002 | .. | 5 |
| Dominikan Respublikası | 2002 | .. | 113 |
| Ekvador | 2002 | .. | 165 |
| El-Salvador | 2002 | .. | 310 |
| Qrenada | 2002 | .. | 10 |
| Qvatemala | 1985 | .. | 287 |
| Qayana | 2002 | 4 | 56 |
| Haiti | 2002 | 3 | 11 |
| Honduras | 2002 | .. | 49 |
| Yamayka | 1998 | .. | 177 |
| Meksika | 2002 | .. | 25708 |
| Antil adaları | 2002 | .. | 145 |
| Nikaraqua | 2002 | .. | 34 |
| Panama | 2002 | .. | 384 |
| Paraqvay | 1995 | .. | 109 |
| Peru | 1997 | 10 | 1183 |
| Müqəddəs Kit adaları | 2002 | .. | 5 |
| Müqəddəs Lusiya adası | 2002 | .. | 19 |
| Müqəddəs Vinsent adası | 2002 | .. | 10 |
| Surinam | 2002 | .. | 10 |
| Trinidad və Tobaqo | 1999 | .. | 65 |
| Uruqvay | 2002 | .. | 164 |
| Venesuela | 2002 | .. | 473 |
| | | | |
| ***Asiya*** | | ***10685*** | ***464631*** |
| | | | |
| *Cənub, Şərqi və Cənub-Şərqi Asiya* | | *9934* | *445272* |
| Əfqanıstan | 2002 | .. | 4 |
| Banqladeş | 2002 | 10 | 13 |
| Butan | 1997 | .. | 2 |
| Bruney | 2002 | .. | 16 |

| | | | |
|---|---|---|---|
| Kamboca | 1997 | .. | 598 |
| Çin | 2002 | 350 | 363885 |
| Honq-Konq, Çin | 2001 | 948 | 9132 |
| Hindistan | 1995 | 187 | 1416 |
| İndoneziya | 1995 | 313 | 2241 |
| Lao Demokratik Respublikası | 1997 | .. | 669 |
| Makau | 2001 | .. | 560 |
| Malayziya | 1999 | .. | 15567 |
| Maldiv adaları | 2002 | .. | 1 |
| Monqolustan | 1998 | .. | 1400 |
| Muanmar | 2002 | .. | 6 |
| Nepal | 2002 | 1 | 6 |
| Pakistan | 2001 | 59 | 582 |
| Filippin | 1995 | .. | 14802 |
| Cənubi Koreya | 2002 | 7460 | 12909 |
| Sinqapur | 2002 | .. | 14052 |
| Şri-Lanka | 1998 | .. | 305 |
| Tayvan, Çin | 2001 | 606 | 2841 |
| Tailand | 1998 | .. | 2721 |
| Vyetnam | 1996 | .. | 1544 |
| *Qərbi Asiya* | | *751* | *11672* |
| Bəhreyn | 2002 | .. | 36 |
| Kipr | 2002 | .. | 3185 |
| İran | 2002 | . | 28 |
| İordaniya | 2002 | . | 13 |
| Kuveyt | 2002 | . | 16 |
| Liviya | 2002 | .. | 58 |
| Oman | 1995 | 92 | 351 |
| Qatar | 2002 | .. | 16 |
| Səudiyyə Ərəbistanı | 1989 | .. | 1461 |
| Suriya | 2002 | .. | 8 |
| Türkiyə | 2002 | 653 | 6311 |
| Birləşmiş Ərəb Əmirlikləri | 2002 | .. | 185 |
| Yəmən | 2002 | 6 | 4 |
| *Mərkəzi Asiya* | | - | *7687* |
| Ermənistan | 1999 | .. | 1604 |
| Azərbaycan | 2002 | .. | 12 |
| Gürcüstan | 1998 | .. | 190 |
| Qazaxıstan | 1999 | .. | 1865 |
| Qırğızıstan | 1998 | .. | 4004 |
| Özbəkistan | 2002 | .. | 12 |
| *Sakit Okean* | | *27* | *548* |
| Fici | 2002 | 2 | 151 |
| Kiribati | 2002 | .. | 1 |
| Yeni Kaleydoniya | 2002 | .. | 3 |

| | | | |
|---|---|---|---|
| Papua-Yeni Qvineya | 1998 | .. | 345 |
| Samoa | 2002 | 7 | 8 |
| Solomon adaları | 2002 | 7 | 16 |
| Tonqa | 2002 | .. | 5 |
| Vanuatu | 2002 | 11 | 19 |
| ***Mərkəzi və Şərqi Avropa*** | | ***850*** | ***242678*** |
| Albaniya | 1995 | .. | 2422 |
| Belarus | 1994 | .. | 393 |
| Bosniya və Herseqovina | 2002 | .. | 16 |
| Bolqarıstan | 2000 | 26 | 7153 |
| Xorvatiya | 1997 | 70 | 353 |
| Çexiya | 1999 | 660 | 71385 |
| Estoniya | 1999 | .. | 3066 |
| Macarıstan | 2000 | .. | 26645 |
| Latviya | 2002 | .. | 210 |
| Litva | 1999 | 16 | 1893 |
| Polşa | 2001 | 58 | 14469 |
| Moldova | 2002 | .. | 2402 |
| Rumıniya | 2002 | 20 | 89911 |
| Rusiya Federasiyası | 1994 | .. | 7793 |
| Serbiya və Monteneqro | 2002 | .. | 22 |
| Slovakiya | 1997 | .. | 5560 |
| Sloveniya | 2000 | .. | 1617 |
| Makedoniya | 1999 | .. | 7362 |
| Ukrayna | 1999 | .. | 7362 |
| **Dünya** | | **63834** | **866119** |

*Qeyd:* Bu göstəricilər müxtəlif səbəblərdən asılı olaraq digər cədvəllərin göstəricilərindən fərqlənə bilər.

**Mənbə:** World Investment Report 2003, UNCTAD, New York and Geneva, 2003

3. Asiya ölkələrində 10685 TMŞ və onların 464631 filialı mövcuddur. Göründüyü kimi, dünya üzrə filialların yarıdan çoxu Asiya ölkələrində yerləşir. Bu TMŞ-lərin 12909 filiala malik 7460-nın baş ofisləri Cənubi Koreyada yerləşir. Çində isə 350 baş ofisə malik TMŞ və 363885 filial fəaliyyət göstərir. Honq-Konqda bu göstəricilər 948 və 9132-yə, Türkiyədə 653 və 6311-ə, tayvanda 606 və 2841-ə bərabərdir. Malayziyada 15567, Filippində 14802, Sinqapurda 14052 filial fəaliyyət göstərir.

4. Şərqi Avropada TMŞ-lər üstünlüyü Çexiyaya verirlər. Bu ölkədə 71385 filiala malik 660 TMŞ fəaliyyət göstərir. Polşa üzrə bu göstəricilər müvafiq olaraq 58 və 14469-a bərabərdir.

Xarici filialların hansı formada yaradılmasından asılı olmayaraq, bu zaman əsas məqsəd TMŞ-ləri ümumi idarəetməsi altında həyata keçirilən beynəlxalq istehsalın payının artırılmasıdır. TMŞ-lərin xarici filiallarının fəaliyyəti barədə təsəvvürü Cədvəl 9.2-dən əldə etmək olar.

Bu rəqəmlər TMŞ-ləri qlobal səviyyədə xarakterizə edir. TMŞ-lərin fəaliyyətinin daha aydın təsəvvür edilməsi üçün isə onların mikrosəviyyədə təhlil edilməsi vacibdir.

**Cədvəl 9.2.**

**Birbaşa xarici investisiyaların (BXİ) və beynəlxalq istehsalın müxtəlif göstəriciləri, 1982-2002-ci illər (mlrd. dollarla və %-lə)**

| Göstəricilər | Cari qiymətlərdə dəyər (mlrd. dollarla) | | | İllik artım templəri (%-lə) | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1982 | 1990 | 2002 | 1986-1990 | 1991-1995 | 1996-2000 | 1999 | 2000 | 2001 | 2002 |
| *BXİ idxalı* | 59 | 209 | 651 | 23.1 | 21.1 | 40.2 | 57.3 | 29.1 | -40.9 | -21.0 |
| *BXİ ixracı* | 28 | 242 | 647 | 25.7 | 16.5 | 35.7 | 60.5 | 9.4 | -40.8 | -9.0 |
| *BXİ-nin məcmu idxalı* | 802 | 1954 | 7123 | 14.7 | 9.3 | 17.2 | 19.4 | 18.9 | 7.5 | 7.8 |
| *BXİ-nin məcmu ixracı* | 595 | 1763 | 6866 | 18.0 | 10.6 | 16.8 | 18.2 | 19.8 | 5.5 | 8.7 |
| *Transsərhəd qovuşma və birləşmələri* | ... | 151 | 370 | 25.9 | 24.0 | 51.5 | 44.1 | 49.3 | -48.1 | -37.7 |
| *Xarici filialların satış həcmi* | 2737 | 5675 | 17685 | 16.0 | 10.1 | 10.9 | 13.3 | 19.6 | 9.2 | 7.4 |
| *Xarici filialların məcmu istehsalı* | 640 | 1458 | 3437 | 17.3 | 6.7 | 7.9 | 12.8 | 16.2 | 14.7 | 6.7 |
| *Xarici filialların məcmu aktivləri* | 2091 | 5899 | 26543 | 18.8 | 13.9 | 19.2 | 20.7 | 27.4 | 4.5 | 8.3 |
| *Xarici filialların ixracı* | 722 | 1197 | 2613 | 13.5 | 7.6 | 9.6 | 3.3 | 11.4 | -3.3 | 4.2 |
| *Xarici filialların işçilərinin sayı (min nəfərlə)* | 19375 | 24262 | 53094 | 5.5 | 2.9 | 14.2 | 15.4 | 16.5 | -1.5 | 5.7 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *ÜDM (cari qiymətlərdə)* | 10805 | 21672 | 32227 | 10.8 | 5.6 | 1.3 | 3.5 | 2.6 | -0.5 | 3.4 |
| *Əsas kapitala məcmu yatırımlar* | 2286 | 4819 | 6422 | 13.4 | 4.2 | 1.0 | 3.5 | 2.8 | -3.9 | 1.3 |
| *Royalti və lisenziya ödəmələri hesabına gəlirlər* | 9 | 30 | 72 | 21.3 | 14.3 | 6.2 | 5.7 | 8.2 | -3.1 | ... |
| *Əmtəə və qeyr-amil xidmətlərinin ixracı* | 2053 | 4300 | 7838 | 15.6 | 5.4 | 3.4 | 3.3 | 11.4 | -3.3 | 4.2 |

**Mənbə:** World Investment Report 2003. UNCTAD, New York and Geneva, 2003.

### 7.3. Transmilli şirkətlərin dünya təsərrüfatında rolu

Yuxarıda qeyd edildiyi kimi, 2002-ci ilin sonuna dünyada 64 min TMŞ fəaliyyət göstərmişdir ki, onların da nəzarətində bütün dünya üzrə 870 min xarici filial olmuşdur.[1] Onlar dünya sənaye istehsalının yarısına, xarici ticarətin 63%-nə, patent və lisenziyaların 4/5-nə nəzarət edirlər. Dünya taxıl, kofe, qarğıdalı, meşə materialları, tütün, dəmir filizi bazarlarının, 90%-i, mis və boksitlər bazarının 85%-i, çay bazarının 80%-i, banan, təbii kauçuk və xam neft bazarlarının 75%-i onların nəzarətindədir.ABŞ-ın ixrac əməliyyatlarının yarısı amerikan və xarici TMŞ-lər tərəfindən həyata keçirilir. Böyük Britaniyada onların payı 80%-ə, Sinqapurda 90%-ə çatır. Yeni texnologiyaların transferti ilə əlaqədar ödəmələrin böyük hissəsi TMŞ-lərin daxilində həyata keçirilir: ABŞ-da onların payı 80%, Böyük Britaniyada 90% təşkil edir. TMŞ-lərin 60%-i maddi istehsal sahəsində, 37%-i xidmət sahəsində, 3%-i isə hasilat sənayesində və kənd təsərrüfatında fəaliyyət göstərirlər.

Xarici aktivlərinin həcminə görə 100 ən iri TMŞ-lərin siyahısı Cədvəl 9.3-də verilmişdir. Göründüyü kimi, bütün 100 ən iri TMŞ-nin demək olar ki, hamısı inkişaf etmiş ölkələrdə yerləşir.

100 ən iri qlobal TMŞ-nin ümumiləşdirilmiş göstəriciləri Cədvəl 9.4-də əks olunmuşdur. Cədvəldən göründüyü kimi, 100 ən iri TMŞ-nin xarici aktivlərinin həcmi son illərdə 40,3% artaraq 2968 milyard dollar təşkil etmişdir. Xarici satışların həcmi isə əksinə o

[1] Bu və bundan sonrakı göstəricilər UNCTAD-ın "World Investment Report 2003" (New York and Geneva, 2003) hesabatından götürülmüşdür.

qədər yüksək templə artmamışdır. Burada artım 5,5%-ə bərabər olmuş və ümumi məbləğ 2247 milyard dollar təşkil etmişdir. Xarici filiallarda çalışan işçilərin sayı isə 16,2% artaraq 7 milyon nəfəri ötmüşdür.

Bu 100 TMŞ dünya iqtisadiyyatına çox güclü təsir göstərir, çünki beynəlxalq istehsalın nüvəsini formalaşdıran istehsal və maliyyə güclərinin əksəriyyəti məhz onların əlində cəmlənmişdir. Ona görə də təsadüfi deyildir ki, bu qrup TMŞ-lərdə transmillilik indeksi daha yüksəkdir və bu indeks artmağa doğru meyllidir: 1999-cu ildə bu indeks 52,3-ə bərabər olsa da, sonrakı iki ildə 5,5 bənd artaraq 57,8 təşkil etmişdir.

Cədvəldən belə bir nəticə çıxarmaq olar ki, 64 min TMŞ-nin xarici aktivlərinin 11,2%-i, xarici satışlarının 12,7%-i, işçilərin isə 13,3%-i bu 100 ən iri TMŞ-nin payına düşür.

Milli-dövlət mənşəsi baxımından 100 ən iri TMŞ-nin 90%-inin mənzil-qərargahları “triada”da (Şimali Amerika, Qərbi Avropa və Yaponiya) yerləşir. Bunu Cədvəl 9.5-dən əyani surətdə görmək olar.

Cədvəldən göründüyü kimi, ən çox TMŞ ABŞ-a məxsusdur. Belə ki, 100 ən iri TMŞ-dən 29-u bu ölkənin payına düşür. 100 ən iri TMŞ-nin xarici aktivlərinin 29,2%-i ABŞ şirkətlərinə məxsusdur. Bununla belə, “Qrup 100”ün daxilində ABŞ şirkətlərinin sayı demək olar ki, dəyişməsə də, onların xarici aktivlərdəki payı aşağı düşməyə meyllidir. Eyni zamanda, ABŞ TMŞ-lərinin transmillilik indeksi artmaqdadır.

**Cədvəl 9.3.**

**Xarici aktivlərin həcminə görə dünyanın 100 ən iri transmilli şirkəti, 2001**

(milyon dollarla və nəfərlə)

| 2001 sıralaması | | 2000 sıralaması | | Şirkət | Ölkə | Sahə | Aktivlər | | Satışlar | | İşçilər | | TMI (%) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Xarici aktivlər** | **TMİ** | **Xarici aktivlər** | **TMİ** | | | | *Xarici* | *Cəmi* | *Xarici* | *Cəmi* | *Xarici* | *Cəmi* | |
| 14 | 3 | Zalakeramia Rt. | Macarıstan | Gil məhsulları və metal | 65.0 | 120.0 | 39.0 | 64.0 | 1889 | 2921 | 59.9 |
| 15 | 19 | Richter Gedeon Ltd. | Macarıstan | Əczaçılıq | 55.9 | 496.5 | 43.5 | 309.6 | 884 | 5007 | 14.3 |
| 16 | 11 | Malev Hungarian Airlines Ltd. | Macarıstan | Nəqliyyat | 41.4 | 187.0 | 299.0 | 383.4 | 49 | 2952 | 33.9 |
| 17 | 17 | Intereuropa d.d. | Sloveniya | Ticarət | 34.0 | 200.0 | 25.0 | 163.0 | 662 | 2230 | 20.7 |
| 18 | 12 | Lek d.d. | Sloveniya | Əczaçılıq | 28.1 | 332.4 | 219.7 | 281.2 | 252 | 2663 | 32.0 |
| 19 | 24 | Petrom SA National Oil Co. | Rumıniya | Neft və təbii qaz | 28.0 | 3151.0 | 303.0 | 2423.0 | 149 | 77630 | 4.5 |
| 20 | 13 | Croatia Airlines d.d. | Xorvatiya | Nəqliyyat | 26.3 | 328.4 | 90.4 | 141.8 | 63 | 977 | 26.1 |
| 21 | 23 | Merkur d.d. | Sloveniya | Ticarət | 26.1 | 397.9 | 44.8 | 436.7 | 89 | 2824 | 6.7 |
| 22 | 9 | Budimex Capital Group | Polşa | Konstruksiya | 23.8 | 372.6 | 50.4 | 610.0 | 1076 | 1189 | 35.0 |
| 23 | 8 | BLRT Grupp AS | Estoniya | Gəmiqayırma | 22.6 | 83.7 | 31.5 | 83.8 | 1521 | 3415 | 36.4 |
| 24 | 16 | Iskraemeco d.d. | Sloveniya | Elektrik avadanlığı | 19.0 | 86.5 | 32.8 | 115.0 | 267 | 2114 | 21.0 |
| 25 | 18 | Tiszai Vegyi Kombinat Ltd. | Macarıstan | Kimya | 16.6 | 462.5 | 245.6 | 489.9 | 182 | 2987 | 19.9 |

*Qeyd 1:* Cədvəldə ancaq qeyri-maliyyə TMŞ-ləri əks olunmuşlar.

**Cədvəl 9.12.**

**Mərkəzi və Şərqi Avropa ölkələrinin**
**25 lider TMŞ-sinin mənşə ölkələri**

| Ölkələr | 2001 | 1998 | 1997 |
|---|---|---|---|
| Sloveniya | 8 | 5 | 4 |
| Macarıstan | 5 | 4 | 6 |
| Rusiya | 4 | - | - |
| Xorvatiya | 4 | 4 | 4 |
| Latviya | 1 | 1 | 1 |
| Rumıniya | 1 | 1 | 1 |
| Polşa | 1 | 3 | 3 |
| Estoniya | 1 | - | - |
| Çexiya | - | 3 | 3 |
| Slovakiya | - | 2 | 2 |
| Moldova | - | 1 | 1 |
| Litva | - | 1 | - |
| **Cəmi** | **25** | **25** | **25** |

**Mənbə: “**World Investment Report 2003” (UNCTAD, New York and Geneva, 2003) hesabatının göstəriciləri əsasında müəlliflərin hesablamaları.

**Cədvəl 9.13.**

**Mərkəzi və Şərqi Avropa ölkələrinin**
**25 ən iri TMŞ-nin ümumiləşdirilmiş göstəriciləri:**
**aktivlərin və satışların həcmi (milyon dollar),**
**işçilərin sayı (nəfər)**

| Göstəricilər | 2001 | 1998 | 1997 | 2001/1997, %-lə |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Xarici | 8926 | 2315 | 2142 | 316,7 |
| Cəmi | 33572 | 18064 | 16644 | 101,7 |
| **Satışlar** | | | | |
| Xarici | 12997 | 3740 | 3384 | 284,1 |
| Cəmi | 30134 | 15276 | 15383 | 95,9 |
| **İşçilər** | | | | |
| Xarici | 30053 | 8914 | 9865 | 204,6 |
| Cəmi | 335236 | 259388 | 266900 | 25,6 |
| **Orta TMİ** | 30,3 | 31,3 | 30,8 | -0,5 |

**Mənbə: “**World Investment Report 2003” (UNCTAD, New York and Geneva, 2003) hesabatının göstəriciləri əsasında müəlliflərin hesablamaları.

TMŞ-lər üzrə isə bu göstərici 30 milyard dollar, “Qrup 50” üzrə isə 3,7 milyard dollar təşkil edir. Beləliklə, Mərkəzi və Şərqi Avropa ölkələrinin ən iri TMŞ-ləri belə öz aktivlərinin həcminə görə, o qədər də böyük olmayan şirkətlərdir. Bununla belə, ən yüksək artım dinamikası məhz bu göstərici üzrə müşahidə edilir. Belə ki, 1997-ci illə müqayisədə 2001-ci ildə 25 lider TMŞ-nin xarici aktivlərinin ümumi həcmi 316,7% artmışdır. Ümumilikdə isə, cədvəldəki digər əsas göstəricilər üzrə də 25 lider TMŞ dünyanın aparıcı şirkətlərindən əhəmiyyətli dərəcədə geri qalırlar. Lakin, bu göstəricilərin hər birinin artım dinamikası kifayət qədər yüksəkdir.

25 lider TMŞ-nin transmillilik indeksi 2001-ci ilin sonuna 30,3% təşkil edib. Bu o deməkdir ki, onlar bu göstərici üzrə də digər qrup TMŞ-lərdən geri qalırlar.

25 lider TMŞ-nin sahəvi ixtisaslaşması Cədvəl 9.14-də göstərilmişdir.

**Cədvəl 9.14.**

**Mərkəzi və Şərqi Avropa ölkələrinin**
**25 ən iri TMŞ-sinin sahəvi ixtisaslaşması**

| Sahələr | 2001 | 1998 | 1997 |
|---|---|---|---|
| Nəqliyyat və daşıma | 6 | 5 | 5 |
| Neft və təbii qaz | 4 | 4 | 4 |
| Əczaçılıq | 4 | 4 | 3 |
| Ticarət | 3 | 2 | 3 |
| Elektronika/elektrik avadanlığı | 2 | 1 | 1 |
| Kommunal xidmətlər | 1 | - | - |
| Ərzaq və içkilər | 1 | 2 | 2 |
| Metallurgiya | 1 | 2 | 2 |
| Tikinti | 1 | 1 | 1 |
| Maşınqayırma | 1 | 2 | 2 |
| Kimya sənayesi | 1 | 1 | 1 |
| **Cəmi** | **25** | **25** | **25** |

**Mənbə: “**World Investment Report 2003” (UNCTAD, New York and Geneva, 2003) hesabatının göstəriciləri əsasında müəlliflərin hesablamaları.

Beləliklə, yuxarıdakı rəqəmlərdən aydın olur ki, Mərkəzi və Şərqi Avropa ölkələrinin TMŞ-ləri beynəlmiləlləşmənin ilkin mərhələsindədirlər və hələ ki, onların mövqeləri kifayət

qədər zəifdir. Daxili iqtisadi rejimlərin qeyri-sabitliyi də TMŞ-lərin nəticələrinə öz təsirini göstərir.

TMŞ-lərin aktiv istehsal, investisiya, ticarət fəaliyyəti onlara istehsalın və məhsulun bölüşdürülməsinin beynəlxalq tənzimləyicisi rolunu oynamağa imkan verir. Bununla da, onlar bu və ya digər ölkənin beynəlxalq əmək bölgüsü sistemində və dünya təsərrüfatı əlaqələrində mövqelərinin müəyyənləşdirilməsi üçün vacib amil kimi çıxış edir.

Inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarına daxil olan TMŞ-lər iqtisadiyyatın əsas sahələrində lider mövqeləri əllərinə keçirirlər. belə ki, onlar inkişaf etməkdə olan ölkələrin sənaye istehsallarının və xarici ticarətinin demək olar ki, yarısına nəzarət edirlər.

Beynəlxalq şirkətlər bir çox yerli şirkətləri, o cümlədən kiçik və orta müəssisələri öz fəaliyyət sferalarına cəlb edirlər ki, bu da kiçik və orta biznesin beynəlxalq şirkətlərdən asılılığını gücləndirir. Bu asılılq isə daha çox birbaşa funksolanal əlaqələrə əsaslanır, yəni ixtisaslaşma, kopperasiyalaşma, məhsulun satışının təşkili və s. əsasında ortaya çıxır.

Iqtisadi yardım beynəlxalq şirkətlərin fəaliyyət məqsədi olmasa da, onların fəaliyyəti obyektiv olaraq sənayenin inkişafına gətirib çıxarır, milli təsərrüfatın strukturunu dəyişir. Bununla da, həmin ölkələrin beynəlxalq iqtisadi münasibətlərdə iştirakı müəyyən qədər də olsa modernləşdirilir.

TMŞ-ləri inkişaf etməkdə olan ölkələrdə fəaliyyət nəticələrinin müsbət və mənfi tərəflərini göstərmək olar. Müsbət tərəflərə aşağıdakılar aiddir:

- elmi-texniki inqilabın nailiyyətlərinin dünya təsərrüfatının əyalətlərinə yayılması;
- yerli sənaye sahələrinin modernləşdirilməsi üçün pul və texniki vasitələrin ayrılması;
- yeni iş yerlərinin yaradılması və yerli əhalinin məşğulluq səviyyəsinin artması;
- beynəlxalq şirkətlərin filiallarında çalışanların daha yüksək əmək haqqı almaları və sosial təminata malik olmaları;
- milli kadrların ixtisas səviyyələrinin artırılması;
- yerli istehsalçıların beynəlxalq əmək bölgüsü proseslərinə qoşulmasına yardımçı olmaları.

TMŞ-lərin inkişaf etməkdə olan ölkələrdə fəaliyyətlərinin mənfi nəticələrinə aşağıdakıları aid etmək olar:

- öz gücləri ilə onlara maneçilik törədən yerli firmaları "boğmaları";
- inhisar qiymətlərinin müəyyən edilməsi;

- gəlirlərin müxtəlif ad altında bir ölkədən digər ölkəyə köçürülməsi ilə vergidənyayaınma və bununla da, yerləşdiyi ölkənin qanunlarını pozma;
- istehsal fəaliyyəti ilə ətraf mühitin çirkləndirilməsinə gətirib çıxarma;
- öz işçilərinə daha yüksək əmək haqqı verməklə əmək bazarında mövcud vəziyyətin destabilləşdirilməsi;
- ölkə hökumətinin siyasətinə təsir etmə.

Sənayecə inkişaf etmiş ölkələrin ərazilərində fəaliyyət göstərən TMŞ-lər də bu ölkələrin iqtisadiyyatına və siyasətlərinə getdikcə artmaqda olan təsir göstərirlər.

Beynəlxalq şirkətlərin inkişaf etmiş ölkələrin ərazisində fəaliyyətlərinin ciddi müsbət nətciələri sırasına ilk növbədə onların ölkənin xarici iqtisadi əlaqələrinin dinamikasını, strukturunu və coörafi prioritetlərini müəyyən etmələrini aid etmək olar. Bundan başqa TMŞ-lər inkişaf etmiş ölkələrdə məşğulluğun 20%-ni təmin edir, yerli şirkətlər üçün rəqabət mühiti yaradır və bununla da, ölkənin iqtisadi tərəqqisi üçün şərait yaradırlar.

Beləliklə TMŞ-lərin dünya iqtisadiyyatına təsirinin bir neçə əsas istiqamətlərini göstərmək olar.

1. TMŞ-lər bir çox hallarda dünya əmtəə və xidmət bazarlarının dinamikasını və strukturunu, bu bazarlrada rəqabət səviyyəsini müəyyən edirlər.
2. TMŞ-lər kapitalın beynəlxalq hərəkətinə və birbaşa xarici investisiyalara nəzarət edirlər. onlar inkişaf etməkdə olan ölkələrin əsas sərmayəçiləri kimi çıxış edir və onların iqtisadi inkişaf səviyyələrinə aktiv surətdə təsir edirlər. bu o deməkdir ki, müasir TMŞ-lər bütöv regionların inkişaf səviyyələrinə təsir etmək iqtidarındadırlar.
3. TMŞ-lər elmi-texniki tədqiqatları öz elmi mərkəzlərində cəmləşdirməklə texnologiya və biliklərin yaradılmasında və ötürülməsində əhəmiyyətli rol oynayırlar. Istehsal və maliyyə imkanları daha böyük olduğundan daha elmtutumlu istehsalla məhz onlar məşğul olurlar. Onlar daha çox tələb olunan istehlak keyfiyyətlərinə malik ən yeni məhsul növlərini hazırlayır və bununla da, istehsalın texnoloji inkişaf prosesinə yardımçı olurlar.
4. TMŞ-lər peşəkar biliklərin yayılmasına, müxtəlif ölkələrdən olan əməkdaşlar arasında təcrübə mübadiləsi prosesinə şərait yaratmaqla beynəlxalq işçi miqrasiyasının vacib amillərindən biri kimi çıxış edirlər. bununla da, beynəlxalq əmək bazarı meydana gəlir.

Beləliklə, TMŞ müasir dünya iqtisadiyyatında gedən bir neçə əsas prosesin hərəkətverici qüvvəsidir. Onlar müxtəlif ölkə və regionların iqtisadiyyatlarına müsbət təsir göstərir, onların müəssisələri arasında istehsal, elmi və texnoloji əlaqələrin inkişafına rəvac verir. TMŞ-lər həm öz aralarında, həm də kiçik və orta bizneslə əməkdaşlıq edərək və rəqabət apararaq beynəlxalq rəqabət prosesində müəyyənedici rol oynayırlar.

### 7.4. Transmilli şirkətlərin fəaliyyətinin müasir strateji modelləri

Şirkətin strategiyası dedikdə dəyişən bazar şəraitində şirkətin məqsədlərinin həyata keçirilməsi üsulu başa düşülür. Sxem 9.2-də transmilli şirkətlərin strategiyalarının təsnifatı verilmişdir.

Transmilli şirkətlər öz strategiyalarını həyata keçirmək üçün investisiya qoyuluşunun müxtəlif modellərindən istifadə edirlər:

- "sıfır"dan sərmayə qoyuluşu;
- transplantasiya;
- strategi alyanslar;
- beynəlxalq birləşmələr və satınalmalar;
- beynəlxalq qovuşmalar.
-

***"Sıfır"dan sərmayə qoyuluşu*** xaricdə tamamilə yeni müəssisənin yaradılmasını nəzərdə tutur. 1980-ci illərə qədər investisiya qoyuluşu modelinin ən geniş yayılmış forması olub.

***Transpalntasiya*** dedikdə ayrı-ayrı istehsal proseslərinin xarici ölkəyə köçürülməsi nəzərdə tutulur. Dünya praktikasında ilk olaraq bu modeldən Yaponiya və Cənubi Koreyanın avtomobilqayırma TMŞ-ləri istifadə etməyə başlayıblar.

***Strateji alyanslar*** qlobal bazara yönəlmiş rəqabət vəzifələrinin birgə həlli üçün yaradılmış çevik firmalararası ittifaqların müxtəlif formalarıdır. Bu zaman bu və ya digər sahə üzrə rəqabət limitləri barədə razılığa gəlinsə də, digər sahələrdə rəqabət davam etdirilir.

**Sxem 9.2.**

**Şirkətlərin strategiyalarının təsnifatı**




Strateji alyansların yaradılmasının əsas konkret məqsədləri kimi aşağıdakıları göstərmək olar:

1) firmaların elmi-texniki tədqiqat sahəsində əməkdaşlığını nəzərdə tutan texnoloji alyanslar – firmalararası koalisiyaların 37,7%-ni təşkil edir;
**2)** birgə istehsal haqqında sazişlər (23,3%). Istehsal alyanslarının əksəriyyətinin məqsədi masştab efefkti əsasında qənaətin əldə edilməsidir. Bu zaman bir sıra

hallarda firmalar istehsal zəncirinin bu və ya digər həlqələri üzrə səyləri birləşdirərək digər əməliyyatlar üzrə müstəqillərikini qoruyurlar, digər hallarda isə birgə müəssisə yaradırlar;

3) satış sahəsində sazişlər (7,9%). Satış alyanslarının əsas məqsədi iştirakçıların qarşılıqlı rəqabətini aradan qaldırmaq və ya məhdudlaşdırmaq deyil. Bu zaman əsas məqsəd iştirakçıların strateji bazarlardakı satış şəbəkələrinə çıxış əldə etməkdir.

***Strateji ailələr*** firma sahibkarlığının ümumiləşdirilmiş formasıdır. Bu zaman firmalar bir-birləri ilə rəqabət aparmır, qarşılıqlı tamamlayıcı strategiyaya malik olur, bazarda müvəffəqiyyətin əldə edilməsi prosesində bir-birlərindən asılı olurlar. Strateji ailələr nümunə kimi istehsal şirkətləri və onlara xidmət edən bankları göstərmək olar.

***Strateji sistemlər*** zamanı çoxlu sayda müəssisələr (istehsal şirkətləri, ticarət firmaları, banklar) uzunmüddətli birgə iş əsasında kooperasiya əlaqələrinə daxil olurlar və bununla da, kopperasiya və bir şirkət vasitəsilə tənzimləmənin ümumi şərtləri meydana gəlir.

***Beynəlxalq birləşmələr və satınalmalar***ın beynəlxalq sahibkarlıq forması kimi əhəmiyyəti artmaqdadır. Transmilli şirkətlər özlərinin sonrakı ekspansiyasını təkcə yeni müəssisələrin yaradılması ilə deyil, həmçinin birləşmə və və satınalmalar yolu ilə də həyata keçirirlər. Bu prosesin masştabının artım templərini Cədvəl 9.15-dən görmək olar.

**Cədvəl 9.15.**

**Dəyəri 1 milyard dollardan artıq olan transsərhəd birləşmə və satınalmaları, 1987-2002**

| İl | Sazişlərin sayı | Ümumi sazişlərdə payı, %-lə | Dəyəri, milyard dollarla | Ümumi dəyərdə payı, %-lə |
|---|---|---|---|---|
| *1987* | 14 | 1.6 | 30.0 | 40.3 |
| *1988* | 22 | 1.5 | 49.6 | 42.9 |
| *1989* | 26 | 1.2 | 59.5 | 42.4 |
| *1990* | 33 | 1.3 | 60.9 | 40.4 |
| *1991* | 7 | 0.2 | 20.4 | 25.2 |
| *1992* | 10 | 0.4 | 21.3 | 26.8 |
| *1993* | 14 | 0.5 | 23.5 | 28.3 |
| *1994* | 24 | 0.7 | 50.9 | 40.1 |
| *1995* | 36 | 0.8 | 80.4 | 43.1 |
| *1996* | 43 | 0.9 | 94.0 | 41.4 |
| *1997* | 64 | 1.3 | 129.2 | 42.4 |
| *1998* | 86 | 1.5 | 329.7 | 62.0 |

| | | | | |
|---|---|---|---|---|
| *1999* | 114 | 1.6 | 522.0 | 68.1 |
| *2000* | 175 | 2.2 | 866.2 | 75.7 |
| *2001* | 113 | 1.9 | 378.1 | 63.7 |
| *2002* | 81 | 1.8 | 213.9 | 58.1 |

**Mənbə: "**World Investment Report 2003" (UNCTAD, New York and Geneva, 2003) hesabatının göstəriciləri əsasında müəlliflərin hesablamaları.

Cədvəldən göründüyü kimi, 1990-cı illərin əvvəllərindən 2000-ci ilə qədər transsərhəd birləşmə və satınalmalarının həm sayı, həm də dəyəri sürətlə artmışdır. 1991-ci ildə dəyəri 1 milyarddan artıq olan cəmisi 7 saziş (ümumi dəyəri 20,4 milyard dollar) imzalanmışdısa, 2000-ci ildə belə sazişlərin sayı 175-ə (ümumi dəyəri 866,2 milyard dollar) çatmışdı. 1990-cı illərdə şirkətlərin birləşməsinin hərəkətverici qüvvələrinin icmalı Cədvəl 9.16-da verilmişdir.

**Cədvəl 9.16.**

**1990-cı illərdə şirkətlərin birləşmə və satınalmalarının beynəlxalq işgüzar mühiti**

| **Birləşmə və satınalmaların hərəkətverici qüvvələri** | **Şirkətlərin beynəlxalq birləşmə və satınalmalarının nəticələri** |
|---|---|
| *Artan rəqabət, qloballaşma və dövlət siyasəti* | Milli və coğrafi bazar diversifikasiyasının əldə edilməsi və bazarda payın artırılması: firmalar yeni müəssisələr yaratmaqdansa birləşmə və satınalmalarda iştirak etməyə üstünlük verirlər. 1980-ci illərdə hökumətlər şirkətlərin birləşməsi və satınalmalarını dəstəkləyirdilər. |
| *Artan rəqabət və qloballaşma şəraitində daha yüksək səmərəlilik* | Firmalar ümumilikdə işlərinin yaxşılaşdırılmasına yönəldilmiş birgə beynəlxalq istehsal şəbəkələri yaradırlar. Şirkətlərin birləşməsi və satınalmalar bu cür şəbəkələri daha sürətlə yaratmağa imkan verir. |
| *Texnologiyalara çıxış və tədqiqat və işləmələrə çəkilən xərclərin azaldılması* | Yeni texnologiyalara çıxış əldə etmək üçün texnologiyaların işlənməsi ilə əlaqədar risqlər və xərclər bölüşdürülür və bu da məhsulun hazırlanması üçün zəruri olan vaxt müddətini qısaldır. TMŞ-lər tədqiqatlar və işləmələrlə məşğul olan şirkətləri satın ala və ya bu cür şirkətlərlə birləşə bilərlər və bununla da, onların texnologiya və resurslarına çıxış əldə edə bilərlər. |
| *Avropa Birliyinin vahid bazar proqramına cavab* | Vahid bazar proqramı həm Avropa Birliyinin firmaları, həm də üçüncü ölkələrin firmaları üçün istehsalın rasionallaşdırılmasına, əmtəə və xidmətləriin Avropa Birliyi sərhəddində yayılmasına və firmaların bazarlarda paylarının artırılmasına yönəlmiş birləşmə və satınalma prosesində eyni imkanlar yaratdı. |
| *Ucuz maliyyə mənbələrinin seçimi imkanı* | Kreditin əhəmiyyətli artımı üstünlüyündən istifadə etmək üçün maliyyələrin birləşdirilməsi və bir çox şirkətlərin dəyərindən aşağı səviyyədə qiymətləndirilməsi kimi yeniliklər meydana gəlir. |
| *Yeni investisiya imkanları* | İqtisadi artım nəticəsində yaranan əlverişli investisiya imkanlarından istifadə etmək üçün yeni bazarlara daxil olmaq və ya yeni fəaliyyət növləri ilə məşğul olmaq lazımdır. |

Bununla yanaşı, 2002-ci ildə transsərhəd birləşmələri və satınalmaları üzrə sazişlərin ümumi sayı 2000-ci ildəki pik göstəricidən – 7894-dən 2002-ci ilin sonuna 4493-ə enmişdir. Onların orta dəyəri isə 2000-ci ildəki 145 milyon dollardan 2002-ciildə 82 milyon dollara düşmüşdür. Dəyəri 1 milyard dollardan artıq olan sazişlərin sayı isə 2000-ci ildəki 175-dən 2002-ci ildə 81-ə enmişdir.

Transsərhəd birləşmələri əsasən telekommunikasiya, əczaçılıq, işgüzar xidmətlər sahələrini əhatə edir. Transmilli şirkətlər bu prosesi stimullaşdıraraq qlobal yenidənqurmanı və şirkətlərin dünya iqtisadiyyatının müvafiq sahələrində strateji mövqelərinin dəyişməsini həyata keçirirlər. Dünya üzrə bağlanan birləşmə və satınalma sazişlərinin 90%-i inkişaf etmiş ölkələrin payına düşür. Bu sazişlər inkişaf etmiş ölkələr üçün kapital qoyuluşunun əsas üsulu kimi çıxış etməklə yanaşı, TMŞ-lərin fəaliyyətinin əsas istiqamətlərini də aydın şəkildə göstərir: sənayenin daha sərfəli sahələrində birləşmə və satınalmaları həyata keçirərək rəqabət üstünlüklərinin gücləndirilməsi.

Beynəlxalq birləşmə sazişlərinin əsas iştirakçıları tanınmış TMŞ-lərdir (Cədvəl 9.17).

**Cədvəl 9.17.**

**Transsərhəd birləşmələri və satınalmaları üzrə 10 ən iri saziş, 2002**

| **Saziş** | **Dəyəri, mlrd. dollarla** |
|---|---|
| USA Networks Inc-Ent Asts (ABŞ) – Vivendi Universal SA (Fransa) | 10.7 |
| AOL Europe, AOL Australia (Almaniya) – America Online Inc (ABŞ) | 8.3 |
| Niagara Mohawk Holdings Inc (ABŞ) – National Grid Group PLC (Böyük Britaniya) | 8.0 |
| Westcoast Energy Inc (Kanada) – Duke Energy Corp (ABŞ) | 7.4 |
| Innogy Holdings PLC (Böyük Britaniya) – RWE AG (Almaniya) | 7.4 |
| PowerGen PLC (Böyük Britaniya) – E ON AG (Almaniya) | 7.4 |
| Aventis CropScience Hldg SA (Fransa) – Bayer AG (Almaniya) | 6.6 |
| Sonera Corp (Finlandiya) – Telia AB (İsveç) | 6.5 |
| Enterprise Oil PLC (Böyük Britaniya) – Shell Resources PLC (Böyük Britaniya) | 6.2 |
| Miller Brewing, Philip Morris (ABŞ) – South African Breweries PLC (Böyük Britaniya) | 5.6 |

**Mənbə:** World Investment Report 2003, UNCTAD, New York and Geneva, 2003

TMŞ-lərin ***beynəlxalq qovuşmaları*** bir neçə şirkətə və ya bir-birlərinin səhmlərinə sahib olma deməkdir. Daha çox beynəlxalq qovuşma avtomobilqayırma sənayesinin payına düşür.

Transmilli şirkətlər xarici bazarlarda rəqabət üstünlüyü qazanmaq üçün müxtəlif üsullardan istifadə edirlər. ilk öncə qeyd edək ki, firmanın iki əsas növ rəqabət üstünlüyü mövcuddur: daha aşağı səviyyəli xərclər və əmtəə çeşidinin differensiasiyası. Cədvəl 9.18-də rəqabət üstünlüklərinin əldə edilməsinin mümkün üsulları əks olunmuşdur. Firma eyni zamanda bu üstünlüklərin bir neçəsindən istifadə edə bilər. Üsulların birinci qrupundan daxili bazarda fəaliyyət göstərən firmalar da istifadə edirlər. İkinci qrup üstünlüklər isə yalnız fəaliyyətin beynəlmiləlləşməsi zamanı əldə edilir.

Bütün yuxarıda deyilənlərlə yanaşı, beynəlxalq sahibkarlıq fəaliyyətinin formalaşmış sabit tipi haqqında danışmaq hələ ki, mümkün deyildir. Beynəlxalq sahibkarlıq fəaliyyətinin formasının seçim meyarları kimi hər bir sahibkar və firma üçün fərdi xarakter kəsb edən transmilliləşmənin motiv və məqsədləri çıxış edir.

Aydındır ki, qlobal məhsuldar qüvvələr bazasında insanların dünyanın istənilən ölkəsində ehtiyaclarının ödənilməsinə yönəlmiş beynəlxalq istehsalı yaratmış beynəlxalq şirkətlər getdikcə qlobal dünya iqtisadiyyatının əsas subyektinə çevrilirlər. Onlar arasında qlobal rəqabətin kəskinləşməsi yaxın zamanlarda onlarının sayının azalacağından və bununla yanaşı, onların rolunun və gücünün artacağından xəbər verir.

**Cədvəl 9.18.**

**Beynəlxalq şirkətlərin rəqabət üstünlüklərini əldə etmə üsulları**

| Üstünlük | Xüsusiyyəti |
|---|---|
| *1. Ümumi xarakterli rəqabət üstünlükləri* | |
| Fərdi texnologiyaya sahib olma | Firmaya məxsus olan nou-hau və ya məhsul istehsalı və ya idarəetmə texnologiyası. Bu texnologiyanı digər firmalar elmi-tədqiqat yolu ilə və ya texnologiyanın məxsus olduğu firmadan ala bilərlər |
| Əmtəə nişanına əsaslanan "Qudvill" | Təcrübə əsasında əldə edilən keyfiyyət, xidmət və s. görə nüfuz |
| İstehsal masştabı əsasında qənaət, o cümlədən | Məhsul vahidinin dəyərini aşağı salan böyük həcmdə istehsal |
| alışlar | Böyük həcmdə alışlar hesabına xammal və yarımfabrikatların dəyərinin aşağı düşməsi |
| maliyyələşdirmə | Daha aşağı faiz dərəcələri ilə maliyyə mənbələri əldə etmək |
| satış | Məhsul vahidinin göndərilmə və çatdırma xərclərinin aşağı salan xammal və məhsulların böyük hissələrlə daşınması |
| reklam | Reklamın müəyyən dərəcədə "bazarlararası" ixtisaslaşmasına imkan verən bir neçə bazarlarda həyata keçirilən satışlar |
| Dövlətin dəstəyi | Dövlət tərəfindən tənzimlənən bazarlara sərbəst və ya imtiyazlı girişin əldə olunması |
| Personalın idarə edilməsi | Məşğul olan işçilərin qrup şəklində fəaliyyətlərinin stimullaşdırılması bacarığı və əmək məhsuldarlığının optimallaşdırılması |
| *2. Beynəlmiləlləşmə ilə əlaqədar rəqabət üstünlükləri* | |
| Marketinqin beynəlmiləl imkanları | Bir neçə ölkələrdə bazarların tanınması və onlara girişin əldə edilməsi |
| Təchizatın beynəlmiləl mənbələri | Bir neçə ölkədə xammal, yarımfabrikat və s. mənbələrinə etibarlı çıxışın əldə edilməsi, bu, yeganə mənbə mövcud olduğu hala nisbətən xərcləri aşağı salmağa imkan verir |
| Beynəlmiləl diversifikasiya | Bir neçə ölkədə həyata keçirilən əməliyyatlar "ölkə risqi"ni və biznes risqləri aşağı salır |
| Bir neçə ölkədə menecment təcrübəsi | Bir neçə ölkədə əməliyyatların idarə edilməsi bacarığı əsasında əldə edilən təcrübə digər rəqiblər qarşısında üstünlük əldə etməyə imkan verir |
| Aqlomerasiya qənaəti | Digər firmalarla ərazi-istehsal kooperasiyası əsasında həyata keçirilən istehsal fəaliyyətinin aqlomerasiyası |

| | |
|---|---|
| | nəticəsində qənaətin əldə edilməsi |

## 7.5. Transmilli biznesin tənzimlənməsi problemləri

Transmilli biznes fəaliyyətinin milli, ikitərəfli, regional, beynəlxalq tənzimlənməsi sistemlərinin yaradılmasına 1970-ci illərin əvvəllərindən başlanmışdır.

Dövlətlər hazırda TMŞ-lərin fəaliyyətinə nəzarət etmək üçün milli səviyyədə müxtəlif alətləri işləyir və tətbiq edirlər. Onların tətbiqi TMŞ-lərin mənfi təsirinin yumşaldılmasına imkan verir (Cədvəl 9.19).

**Cədvəl 9.19.**

**TMŞ-lərin fəaliyyətinin tənzimlənməsi milli siyasətinin alətləri**

| Dövlət nəzarəti alətləri | Milli müəssisələrin mövqeləri | TMŞ-lərin mövqeləri |
|---|---|---|
| *Milli bazara daxil olmaya nəzarət edilməsi* | yeganə mümkün, lakin müdafiə olunmuş bazarı təmin edir | TMŞ-lərin məqsədlərinə əksdir, lakin onları əməkdaşlıq etməyə maraqlandırır |
| *Subsidiyalar və dotasiyalar* | bazar üzərində tam nəzarətin əldə edilməsinə imkan verir, lakin bazarda həddən artıq bahalı və ya texniki cəhətdən geri qalmış məhsul mövcud olur | mühüm partnyorun cəlb edilməsi üçün zəruri ola bilər |
| *Maliyyə stimulları* | "seçmə rəqabət"ə analojidir | mühüm əhəmiyyətə malik deyildir |
| *İxraca yardım* | əsas şirkətlərin iştirakına yol verilməzsə müvəffəqiyyət mümkündür | Çox vacibdir, əhəmiyyətli partnyorların cəlb edilməsi üçün zəruridir |
| *Qiymət siyasəti* | "yaşamaq" üçün zəruri olan qiymətlər müəyyən edilir və bu qiymətlər adətən dünya qiymətlərindən yüksək olur | qiymətlərin bərabərləşdirilməsi üçün zəruri təzyiq |

Transmiili sahibkarlığın dövlətlərarası əsasda tənzimlənməsinə obyektiv ehtiyac bir tərəfdən beynəlxalq biznesin milli sosial-iqtisadi sistemlərə inteqrasiyası üçün adekvat

institusional-hüquqi infrastrukturun yaradılmasına olan ehtiyacdan, digər tərəfdən isə birbaşa olaraq TMŞ-lərin iqtisadi gücündən irəli gəlir.

1970-ci illərin əvvəllərində TMŞ-lərin davranışının beynəlxalq kodekslərinin hazırlanması istiqamətində hərəkat geniş vüsət almışdı. Bu kodekslər transmilli biznesin tənzimlənməsinin konkret prinsip və normalarını formalaşdıran və çoxtərəfli əsasda razılaşdırılmış sənədlər olmalı idilər.

Bilavasitə BMT çərçivəsində TMŞ-lərin üç davranış kodeksi üzərində iş aparılırdı:

1) BMT-nin İqtisadi və Sosial Şurasının rəhbərliyi altında – TMŞ-lərin fəaliyyətinin bütün aspektlərini əhatə edən universal kodeks;
2) YUNKTAD-ın rəhbərliyi altında – texnologiyaların ötürülməsi sahəsində davranış kodeksi və məhdudlaşdırıcı işgüzar praktika üzrə prinsip və qaydalar məcmuəsi;
3) Beynəlxalq Əmək Təşkilatının rəhbərliyi altında – çoxmilli müəssisələr və sosial siyasətə aid olan prinsiplər üzrə üçtərəfli bəyannamə.

İinkişaf etməkdə olan ölkələrin fikrincə, **TMŞ-lərin Davranış Kodeksi** özündə TMŞ-lərin beynəlxalq səviyyədə fəaliyyətini tənzimləyəcək norma, standart və qaydalarını əks etdirməli və dünya iqtisadiyyatının bütün iştirakçılarının milli və qlobal maraqlarının balanslaşdırılmasının səmərəli aləti kimi çıxış etməli idi.

TMŞ-lərin davranışının universal kodeksində onların fəaliyyətinin əsas normaları əks olunmalı idi ki, bu normalar sırasında da aşağıdakılar xüsusi diqqətə layiqdirlər:

- mülkiyyət sahəsində TMŞ-lər özlərinin xarici müəssisələrində kapitalı qəbul edən dövlətlər tərəfindən səhmdar kapitalında yerli iştirak üzrə irəli sürülən tələblərin yerinə yetirilməsini təmin etməlidirlər, yerli partnyorların səmərəli nəzarətinə şərait yaratmalıdırlar, idarəetmənin bütün həlqələrində işəgötürmə və irəliçəkmə zamanı milli kadrlara üstünlük verməlidirlər;
- valyuta-maliyyə sferasında TMŞ-lər onları qəbul edən ölkələrin hökumətləri ilə bu ölkələrin tədiyyə balanslarının vəziyyəti ilə əlaqədar yaranan problemlərin yumşaldılması üçün məsləhətləşməli və əməkdaşlıq etməlidirlər. Bundan başqa, TMŞ-lər fəaliyyət göstərdikləri ölkələrin kapital bazarlarının funksiya göstərməsinə mənfi təsir edə biləcək hallara, xüsusilə digər firmalar tərəfindən maliyyə vəsaitlərinin alınmasını çətinləşdirə biləcək hallara yol verməməlidirlər;

- transfert qiymətəmələgəlməsi sahəsində TMŞ-lər praktikada azad bazarın müvafiq qiymətlərinə əsaslanmayan qiymətlərin müəyyən edilməsinə yol verməməlidirlər;
- vergiqoyma sahəsində transmilli korporativ strukturu bu cür biznesi qəbul edən ölkələrdə vergilərin hesablanması bazasının dəyişdirilməsi məqsədilə istifadə etməmək tələbi irəli sürülmüşdür;
- istehlakçıların müdafiəsi sahəsində TMŞ-lər onların məhsulların istehlakçılarının həyat və sağlamlığını təhlükə altında qoymamaq üçün müvafiq beynəlxalq standartlara birmənalı olaraq əməl etməli, həmçinin istehlakçıların zərərinə olaraq müxtəlif bazarlarda əmtəələrin keyfiyyət fərqlərinə yol verməməlidirlər;
- TMŞ-lər fəaliyyət göstərdikləri ölkələrin daxili siyasət işlərinə qarışmamalıdırlar.

Kodeksin layihəsinin müzakirəsi və mövqelərin razılaşdırılması prosesinin uzanması onun işlənmə təşəbbüsçülərinin səylərini heçə endirdi. Bunda 1980-ci illərdə transmilli biznesə yanaşma fəlsəfəsinin dəyişməsi də xüsusi rol oynadı.

Lakin, bununla belə, həmin dövrdə bir sıra tənzimləyici sənədlər qəbul edilmişdir:

- Beynəlxalq investisiyalar və çoxmilli müəssisələr haqqında Bəyannamə. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 1976-cı ildə qəbul edilmişdir. Bu bəyannamənin əlavəsində kartellər və rəqabət haqqında milli hüququn müddəalarına uyğun olan çoxmilli müəssisələr üçün rəhbər prinsiplər əks olunmuşdur. Sənədə əməl edilməsi könüllü xarakter kəsb edir.
- Afrika, Karib hövzəsi və Sakit Okean ölkələri və Avropa Birliyi arasında əməkdaşlıq haqqında Lomeya Konvensiyası.
- Avropa Birliyi və Ərəb Dövlətləri Liqası arasında investisiyaların qarşılıqlı dəstəklənməsi və müdafiəsi haqqında Konvensiya.
- And paktı ölkələrinin xarici investisiyalar üzrə Kodeksi. Bu kodeks iştirakçı ölkələr üçün məcburi xarakter kəsb edir və TMŞ-lərin investisiyaları qəbul edən ölkələrin qanunlarına tabe olması konsepsiyasını əks etdirir.
- TMŞ-lər tərəfindən istifadə olunan məhdudlaşdırıcı işgüzar praktika üzərində nəzarət üçün ədalətli prinsip və qaydalar məcmuəsi. BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş işgüzar praktikanın məhdudlaşdırılması üzrə prinsip və qaydaların məcmuəsi dünya bazarlarında rəqabət sahəsində inhisar sui-istifadələrinə qarşı yönəlmişdir.

- Texnologiya ötürülməsini tənzimləyən (o cümlədən TMŞ kanalları vasitəsilə) texnologiyaların ötürülməsi üzrə beynəlxalq kodeks. Texnologiyaların ötürülməsi sahəsində beynəlxalq davranış kodeksi elmi-texniki biliklərin satıcılarının fəaliyyətini tənzimləyir və aşağıdakıları əks etdirir:
  a) texnologiya satıcılarının alıcılarla sazişləri bağlayarkən və bu sazişləri həyata keçirərkən əməl etməli olduqları öhdəliklər siyahısı: satılan texnologiyanın tətbiqi zamanı xidmətlərin göstərilməsi; texnologiyadan istifadə zamanı insanların həyat və sağlamlığı və ətraf mühit nöqteyi-nəzərindən təhlükə törədə biləcək hallar və potensial mənfi nəticələr barədə alıcıya tam informasiya verilməsi və s.;
  b) texnologiya satıcılarının imtina etməli olduqları məhdudlaşdırıcı praktika fənlərinin müəyyən edilməsi: alınmış texnologiyadan müstəqil surətdə istifadə edildiyi zaman əldə edilmiş müxtəlif növ təkmilləşdirmələrin satıcıya geri ötürülməsi tələb edilməməlidir; satıcı alıcının sənaye mülkiyyəti hüququnu mübahisə obyektinə çevirməməlidir və s.

Bu sazişlərin yerinə yetirilməsinə TMŞ-lərin fəaliyyəti ilə birbaşa və ya dolayı əlaqədar olan müxtəlif beynəlxalq şirkətlər nəzarət edir.

Eyni zamanda TMŞ-lərin fəaliyyəti məsələləri ilə məşğul olan beynəlxalq təşkilatlar da yaradılmışdır:

- TMŞ-lərin fəaliyyəti ilə əlaqədar olan bütün kompleks məsələlərlə məşğul olan TMŞ-lər üzrə BMT komissiyası;
- Çoxmilli müəssisələrə və sosial siyasətə aid olan prinsiplər haqqında üçtərəfli Bəyannamənin (1977-ci ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmişdir) yerinə yetirilməsinə nəzarət edən Beynəlxalq Əmək Təşkilatı yanında çoxmilli müəssisələr üzrə Komitet. Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş Üçtərəfli bəyannamə TMŞ-lər üçün işçi qüvvəsini işəgötürmədə, kadrların hazırlanmasında, işçilər üçün müvafiq əmək və yaşayış şəraitinin təmin edilməsində bir sıra davranış qaydaları müəyyən etmişdir;
- İnvestisiyalar üzrə mübahisələrin tənzimlənməsi ilə məşğul olan beynəlxalq ticarət hüquq üzrə BMT komissiyası.

Ümumilikdə yuxarıda sadalanan TMŞ-lərə münasibətdə beynəlxalq siyasət alətləri könüllü surətdə əməl edilən normalar sinfinə aiddir ki, bu da TMŞ-lərə həmin alətlərə müəyyən edilən fəaliyyət prinsiplərinə əməl etməmək şəraiti yaradır. Bununla yanaşı, beynəlxalq kodekslər əməl edilməsi məcburi olan milli qanunvericilik aktlarının hazırlanması zamanı əsas rolunu oynayırlar. Bundan əlavə, dünya ictimaiyyətinin bütün ölkələri nüfuzlu təşkilatların tövsiyyələrini qəbul edir və TMŞ-lərin bu tövsiyyələrə əməl etməmələri zamanı onlara dəstəyi zəiflədirlər.

1980-ci illərdən başlayaraq əksər ölkələr TMŞ-lərə münasibətlərini dəyişdilər və daha liberal mövqelərdən çıxış etməyə başladılar. Bu isə müasir dünya iqtisadiyyatında baş verən obyektiv proseslərlə izah oluna bilər: elmi-texniki inqilabın dünya təsərrüfatının bütün sahələrində artan təsiri, onun beynəlmiləlləşməsi, cəmiyyətin sosial strukturunda baş verən dəyişikliklər, bütün dünya ölkələri qarşısında duran və həll edilməsi vacib olan vəzifələrin eynitipli olması. Bu vəzifələr arasında aşağıdakıları qeyd etmək olar:

- uzunmüddətli iqtisadi artım üçün şəraitin yaradılması;
- elmi-texniki siyasətə lazımi səviyyədə diqqət göstərilməsi;
- dərin struktur dəyişiklikləri əsasında ölkənin iqtisadi potensialının gücləndirilməsi;
- ölkənin istehsal bazasının keyfiyyət baxımından təzələnməsi və onun məhsullarının rəqabət qabiliyyətinin gücləndirilməsi.

İnkişaf etməkdə olan ölkələr üçün yuxarıda deyilənlərə aşağıdakələrə da əlavə etmək olar:

- borc böhranı;
- iqtisadiyyatda dövlət tənzimlənməsinin üstün mövqe tutması ilə əlaqədar olaraq sosial-iqtisadi siyasətin qeyri-səmərəliliyi;
- milli iqtisadiyyatda xarici kapitalın fəaliyyətinin səmərəli tənzimlənməsi təcrübəsinin yığılması;
- transmilli biznesin inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında roluna yeni yanaşma, iqtisadi inkişafın bir çox problemlərini beynəlxalq şirkətlərlə əməkdaşlıq vasitəsilə həll etmək imkanı.

Bu vəzifələri təkcə inzibati metodlarla, iqtisadiyyata dövlət müdaxiləsi ilə həll etmək mümkün deyildir, buna görə də dövlət-inhisar tənzimlənməsi mexanizmi özəl sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinin xeyrinə transformasiya olunub və beynəlxalq inhisarlara münasibətdə siyasət dəyişib.

1980-ci illərdə birləşmə və satınalmalara aid qanunvericilik əhəmiyyətli dərəcədə liberallaşdırıldı. 1988-ci ildə əsas məqsədi istehsal məqsədlərinə xarici investisiyaların dəstəklənməsi olan (xüsusilə inkişaf etməkdə olan ölkələrdə) İnvestisiya Zəmanətləri üzrə Beynəlxalq Agentlik yaradıldı.

Milli TMŞ-lərin siyasi, diplomatik və hüquqi cəhətdən dəstəklənməsi gücləndirmək üçün sənayecə inkişaf etmiş ölkələr transmilli sahibkarlıq kapitalının əsas qəbuledicisi olan ölkələrlə investisiyaların müdafiəsi haqqında ikitərəfli sazişlər imzalayırlar. Bu cür sazişlər üçün aşağıdakılar xarakterikdir:

- hər iki tərəfin milli prinsiplərinin uyğunlaşdırılması və həm xarici sahibkarlarla, həm də yerli iş adamları ilə bərabərhüquqlu davranışı nəzərdə tutan “minimal standartlar”ın formalaşdırılması;
- xarici TMŞ-lərin milli iqtisadiyyata daxil olmasını əngəlləyən maneələrin ixtisarı və aradan qaldırılması.

Bəzi aparıcı elm adamları hesab edirlər ki, böhranlar zamanı bu və ya digər səbəblərdən ya dövlətlər, ya da TMŞ-lər qloballaşmanın irəli sürdüyü templərə davam gətirmirlər və bu da onlar arasında münaqişələrə gətirib çıxara bilər. bununla əlaqədar fəaliyyətləri beynəlxalq iqtisadi münasibətlərin idarə edilə bilən inkişafını əldə etməyə imkan verən beynəlxalq və regional institutlara böyük ümid bəslənilir.